# Dirçəlişi, inamı, zəfəri yaradan lider

*15 İyun Milli Qurtuluş Günüdür. Parçalanıb məhv olmaqdan xilas olduğumuz gündür. Tarixin arxivində əlamətdar, uğurlu, zəfər və qələbə dolu günlərimiz çoxdur. Bu təqvim xalqımızın taleyində olduqca böyük əhəmiyyət daşıyır. Dövlətin, millətin gələcək, firavan həyatının başlanğıcı, əsası oldu.*

15 iyun Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı yox, həm də böyük ictimai-siyasi və tarixi mahiyyəti olan gündür. Onu əbədiləşdirib, tarixin səhifələrinə qızıl hərflərlə yazan, dövlətimizin müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və inkişafında əvəzsiz rol oynayan xalqın xilaskar oğlu Heydər Əliyevdir. Ötən əsrin sonlarında müstəqilliyini itirmək təhlükəsilə üz-üzə dayanan ölkə məhz bu dahi şəxsiyyətin qətiyyəti və iti zəkası sayəsində parçalanmaqdan qurtuldu. Azərbaycan böyük faciələrə yol açan vətəndaş müharibəsindən xilas edildi. Hələ 1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini bərpa edən ölkədə tədricən yaranan gərgin vəziyyət müstəqilliyi təhlükə altında qoyurdu. Pərakəndə idarəetmə anarxiya, bəzi silahlı birləşmələrin başıpozuq hərəkətləri ölkədaxili proseslərdə özbaşınalığa rəvac verir, qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaradırdı. Müxtəlif yerlərdə silahlı dəstələr yaradılır, ölkə regionlara, bölgələrə bölünürdü.

Olduqca çətin bir zamanda ovaxtkı AXC-Müsavat iqtidarı son anda nicat yolu kimi Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri olan görkəmli ictimai-siyasi xadim Heydər Əliyev çətin gündə xalqının və dövlətinin köməyinə gəldi. 1993-cü il iyunun 9-da Bakıya gələrək ölkəni vətəndaş müharibəsi təhlükəsindən qurtarmaq missiyasını üzərinə götürdü. Xalqın xilaskar oğlu həyatını təhlükə altında qoyaraq proseslərin ən qızğın zamanında Gəncəyə yola düşdü. Apardığı danışıqlar nəticəsində vətəndaş qarşıdurmasının qarşısı alındı, milləti yeni bir faciədən xilas etdi. Həmin dövrdə xalq ağır, mürəkkəb vəziyyətdən çıxış yolunu Naxçıvan Ali Məclisinin sədri, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görürdü. Əlbəttə ki, həmin dövrdə ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı. Dövlətini, xalqını canından artıq sevən ulu öndər müasir Azərbaycan dövlətinin varlığını qorudu və tarixi bir missiyaya imza atdı. Məhz onun zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ölkədə xaos və anarxiyanı, özbaşınalığı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Nəticədə, müstəqil Azərbaycan möhkəm əsaslar üzərində yeni inkişaf mərhələsinə qədəm qoydu. Ölkədəki ağır vəziyyət, müharibədəki uğursuzluq, itirilən torpaqlar, bir milyondan çox məcburi köçkünün ağır taleyi ruh düşkünlüyü yaratmışdı. Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıtmaqla atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Xalqın ulu öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. Ölkəmiz tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxdı, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanındı, beynəlxalq aləmdə layiqli yerini tutdu. Atəşkəs əldə edildikdən sonra ölkədə nizami ordu yaradılması istiqamətində mühüm addımlar atıldı. İdarəetmə sistemi formalaşdırıldı, neft müqavilələri imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu və bununla da xalqın öz dövlətinə inamı qaytarıldı.

Məhz aparılan iqtisadi islahatlar, görülən mühüm işlər sayəsində Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, ölkənin dünya birliyinə inteqrasiyası prosesi başlandı. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını, dönməzliyini sübut edən ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi bugünkü müstəqil, suveren və ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın göstəricisidir. Onun başladığı ordu quruculuğu siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilərək böyük Zəfərlər əldə edildi. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Qurtuluş Günü tarixindən başlayan müstəqil Azərbaycan uğrunda mübarizə digər böyük tarix ilə - 8 Noyabr - Zəfər Günü ilə davam edir. Zəfər Gününə gedən yol məhz Milli Qurtuluş Günündən başlandı. 1993-cü ildə Heydər Əliyev Azərbaycanı dağılmaqdan xilas etdi, 2020-ci ildə isə Prezident İlham Əliyev Qarabağı, işğal altında olan torpaqlarımızı döyüş meydanında erməni işğalçılarından xilas edərək suverenliyini və ərazi bütövlüyünü təmin etdi.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2024.- 15 iyun, № 126.- S.10.